**M.F.Axundzadə adına Azərbaycan Respublikası Milli Kitabxanası və**

**Müqəddəs Kiril və Mefodi adına Bolqarıstan**

**Respublikası Milli Kitabxanası arasında**

**qarşılıqlı əməkdaşlıq haqqında**

**Anlaşma Memorandumu**

Bundan sonra "Tərəflər" adlandırılcaq direktor Prof. Kərim Tahirov tərəfindən təmsil edilən, Xaqani küçəsi 57, AZ 1000, Bakı, Azərbaycan ünvanında qeydiyyata alınmış M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası və direktor Dos. Krasimira Aleksandrova tərəfindən təmsil edilən, Bolqarıstan Respublikası 88 Vasil Levski Blvd., 1504 Sofiya, Bolqarıstan ünvanında qeydiyyata alınmış Müqəddəs Kiril və Mefodi adına Bolqarıstan Respublikası Milli Kitabxanası mövcud mədəni mübadilə formalarını gücləndirmək və kitabxanaçılıq və əlaqəli sahələrdə yeni əməkdaşlıq növləri qurmaq məqsədilə aşağıdakılar barədə razılığa gəlirlər:

## Maddə 1: Əməkdaşlıq sahələri

Tərəflərin ölkə qanunvericiliyinə və bu Anlaşma Memorandumunun (bundan sonra "Memorandum" adlandırılacaq) müddəalarına uyğun olaraq, Tərəflər aşağıda müəyyənləşdirilmiş qarşılıqlı maraq doğuran əməkdaşlıq sahələrində ümumi təşəbbüsləri həyata keçirmək barədə razılığa gəlirlər:

**1.1.** Tərəflər aralarında əvvəlcədən razılaşdırılmış və müəyyən edilmiş meyarlara uyğun olaraq kitabxana sənədləri və materiallarının mübadiləsi sahəsində əməkdaşlıq etmək barədə razılığa gəlirlər. Kitabxanalar hər təqvim ilinin sonunda bu sənəd mübadiləsinin nəticələri haqqında qarşılıqlı məlumat verməyi öhdəsinə götürür.

**1.2.** Tərəflər arasındakı kitabxanalar arası abonement hər iki ölkədə qüvvədə olan daxili qanunvericiliyə uyğun olaraq və mövcud beynəlxalq təcrübəyə əsaslanaraq həyata keçiriləcək.

**1.3.** Tərəflər kitabxana mütəxəssislərinin mübadiləsini həyata keçirəcəklər. Kitabxana mütəxəssislərinin hər bir ayrı ziyarətinin şərtləri və müddəaları bu memorandumun bir hissəni təşkil edən yazılı Əlavədə əks olunan qarşılıqlı razılıq əsasında müəyyən ediləcək.

**1.4.** Tərəflər kitabxanaçılıq, biblioqrafiya, elmi informasiya, əlyazma kolleksiyaları sahələrində əməkdaşlığı təşviq etmək barədə razılığa gəlirlər.

**1.5.** Tərəflər bu Anlaşma Memorandumuna bağlı ayrıca ikitərəfli Əlavə əsasında sərgi mübadiləsi edə və birgə layihələrdə iştirak edə bilərlər.

## Maddə 2: Anlaşma Memorandumunun icra proseduru

**2.1.** Hər bir Tərəf, müqavilənin icrasına nəzarət və əlaqələndirmə məqsədilə qurumun nümayəndəsi olaraq əlaqələndirici şəxs təyin edəcək.

**2.2.** Tərəflər, əvvəlki maddələrdə təsvir edilən təşəbbüslərin bir hissəsi olaraq həyata keçirilməli olan hər bir ayrı fəaliyyətin forması, şərtləri və təfərrüatlarını qarşılıqlı şəkildə razılaşdıracaqlar.

**2.3.** Bu Anlaşma Memorandumu çərçivəsində görülən fəaliyyətlər Tərəflərin hər birinin daxili qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcəkdir.

**2.4.** Bu Anlaşma Memorandumu çərçivəsində fəaliyyətlərin hazırlanması və icrası ilə bağlı maliyyə öhdəlikləri də daxil olmaqla Tərəflərin öhdəlikləri qarşılıqlı məsləhətləşmə yolu ilə müəyyən ediləcək və Tərəflər arasında yazılı şəkildə razılaşdırılacaq.

**2.5.** Buradakı fəaliyyətlərlə əlaqədar yarana biləcək xərclər hər bir Tərəfin maliyyə məhdudiyyəti və büdcə imkanları daxilində olacaq.

**2.6.** Bu Müqavilə hər hansı bir maliyyə öhdəliyinin və ya mülkiyyət öhdəliyinin yaranması üçün əsas yaratmır və Tərəflərin bir-birinə qarşı qarşılıqlı iddialar irəli sürməsinə əsas yaratmayacaqdır.

## Maddə 3: Müddət

**3.1.** Bu Anlaşma Memorandumu imzalandığı tarixdən qüvvəyə minir və iki (2) il müddətində qüvvədə olacaq.

**3.2.** Tərəflərdən hər hansı biri digər Tərəfə bir (1) ay əvvəl yazılı şəkildə bildiriş verməklə bu Anlaşma Memorandumuna xitam verə bilər.

**3.3.** Bu Anlaşma Memorandumuna xitam verilməsi və ya müddətinin bitməsi təqdirində, Tərəflər arasında artıq əldə edilmiş istənilən yerinə yetirilməmiş öhdəliklər, vəzifələr və razılaşmalarla bağlı müqavilənin bəndləri və müddəaları qüvvədə qalır.

## Maddə 4: Yekun müddəalar

**4.1.** Bu Anlaşma Memorandumundan irəli gələn və ya bununla əlaqədar yaranan hər hansı bir mübahisə, Tərəflərin səlahiyyətli orqanları

arasında danışıqlar və məsləhətləşmələr yolu ilə və diplomatik kanallar vasitəsilə dostcasına həll ediləcəkdir.

**4.2.** Bu Anlaşma Memorandumu yalnız Tərəflərin qanuni nümayəndələri tərəfindən imzalanmış Əlavələrdə əks olunan Tərəflərin yazılı qarşılıqlı razılığı ilə dəyişdirilə və ya əlavələr edilə bilər.

Bu Anlaşma Memorandumu 14 oktyabr 2021-ci il tarixində Sofiya şəhərində Azərbaycan, bolqar və ingilis dillərində hər biri iki nüsxədə olmaqla imzalanmışdır. Memorandumun təfsiri ilə bağlı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətn üstünlük təşkil edəcək.

| M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası | Müqəddəs Kiril və Mefodi adına Bolqarıstan Milli Kitabxanası |
|---|---|
| ............................................ | ............................................ |
| **Prof. Kərim Tahirov** | **Dos. Krasimira Aleksandrova** |
| **Direktor** | **Direktor** |

AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT NAZİRLİYİ M.F.AXUNDOV adına AZƏRBAYCAN MİLLİ KİTABXANASI